# Əhalinin maarifləndirilməsi diqqət mərkəzində olmalıdır

(Əvvəli 6-cı səhifədə).

«Dəyirmi masa» ətrafında müzakirələrdə iştirak edən Fövqəladə Hallar Nazirliyi Şimal-qərb Regional Mərkəzinin Ərazi orqanları ilə iş şöbəsinin rəisi Tural Ağayev, şöbənin baş məsləhətçisi Məqbul Məmmədov, ictimaiyyətlə əlaqə və təbliğat sektorunun müdiri Qoşqar Əzizov, həmin sektorun baş məsləhətçisi Natiq Rüstəmov, fövqəladə halların manitorinqi və texniki təhlükəsizliyi işinin təşkili sektorunun müdiri Aqşin İbrahimli öz çıxış və açıqlamalarında bir daha bildirdilər ki, məlum olduğu kimi qış aylarında əhalinin qaza olan tələbatı xeyli artır. Yaşayış məntəqələrində, müəssisə və obyektlərdə təbii qazdan geniş istifadə olunur. Odur ki, qaz cihazlarından təlimata uyğun istifadə edilməlidir. Xatırlatmaq lazımdır ki, qeyri-standart qaz cihazlarından istifadə bəzən bədbəxt hadisələrə gətirib çıxarır.

Qaz cihazlarının quraşdırılması və istifadəsi zamanı texniki və yanğın təhlükəsizliyi qaydaları tam gözlənilməlidir. Qaz sobalarından istifadə edərkən diqqətli olmalı, qeyri-standart cihazlardan imtina edilməlidir. Əks halda dəm qazından zəhərlənmə kimi bədbəxt hadisə baş verə bilər. Respublikamızda bu ilki qış mövsümündə belə halların bir neçə dəfə təkrarlanması dediklərimizə sübutdur.

Mənzillərə qaz cihahzları qoyarkən tüstü boruları düzgün yerləşdirilməli, qaz çəkilişi zamanı rezin borulardan istifadəyə yol verilməməlidir. Yaxşı olar ki, bu işləri görərkən həmin sahənin ixtisaslı mütəxəssislərinə müraciət edilsin.

Hamam və vanna otaqları quraşdırılarkən qapı və pəncərələr düzgün qoyulmalı, nəfəslik unudulmamalı, qapılar bayır tərəfə açılmalı, imkan olarsa hava işləmək üçün qapı altına dəliklər yerləşdirilməlidir.

Mənzilə daxil olarkən otağa qaz sızmamasına tam əminlik yarandıqdan sonra işığı yandırmaq, elektrik cihazını qoşmaq, kibriti odlamaq olar. Ümumiyyətlə, evə qazın sızmamasına vaxtaşırı nəzarət etmək, buna sübhə olduqda lazımi yerə müraciət edib, xəbər vermək lazımdır.

Qaz cihazını işlək vəziyyətdə qoyub qonaq getmək, yatmış uşaqlara və qocalara arxayınlaşmaq son anda bədbəxt sonluqla nəticələnə bilər. Son zamanlar baş verən yanğın hadisələrinin əksəriyyəti məhz bu səbəbdən yaranır. Yaşayış evi tikərkən yaxşı olar ki, Regional Mərkəzə müraciət edilsin və onun mütəxəssislərindən məsləhət alınsın.

Rayonumuz üçün xarakterik olan fövqəladə hallardan biri də sel sularının təhlükəsidir. Yəqin ki, çoxları 1997-ci ildə lil axını ilə müşahidə olunan güclü selin törətdiyi fəsadları xatırlamamış deyil. Düzdür, son illər çaylarımızın ram edilməsi sahəsində xeyli işlər görülmüş, etibarlı bəndlər salınmışdır. Lakin, təbii fəlakət hər an gözlənilə bilər. Odur ki, ehtiyatı əldən buraxmaq olmaz. Yaz və payız mövsümündə xüsusilə diqqətli olmaq lazımdır.

Ehtiyatsızlıq edildikdə yanğınlar da ciddi ziyan gətirə bilər. Rayonumuz turizm diyarı olduğundan bu iş daha diqqət mərkəzinə çəkilməlidir. Turistlərin, qonaqların və yerli əhalinin meşələrə və dağ yamaclarına, bir sözlə, ana təbiətin qoynuna çəkilib istirahət etməsi zamanı bütün təhlükəsizlik qaydaları gözlənilməli, yanğın hallarına qarşı əvvəlcədən profilaktik tədbir görülməli, maarifləndirmə işi aparılmalı, bu sahədə mövcud reklam xidmətindən geniş istifadə olunmalıdır. Ötən il bir-birinin ardınca Qəbələ, Oğuz və İsmayıllıda baş vermiş meşə yanğını hadisələri bizi daim ayıq-sayıq olmağa vadar edir. Əkin-biçin kampaniyası dövründə də bu qoruyucu tələblərə ciddi əməl etmək vacibdir.

Hər vasitə ilə çalışmaq lazımdır ki, əhali həlli vacib bu məsələlərlə daim yaxından maarifləndirilsin. Bu işdə təbliğatın, xüsusilə də qəzet vasitəsilə təbliğatın üzərinə böyük vəzifələr düşür.

Çalışaq ki, hər cür fövqəladə hadisədən uzaq olaq. Bu isə bizim özümüzdən asılıdır. Təhlükəsiz həyat uğrunda mübarizə hamımızın borcudur.

**M. RƏHİMOV,**
**«Qəbələ» qəzetinin əməkdaşı.**

# Qəbələ daha bir Azərbaycan çemipionatına ev sahibliyi etdi

Qəbələ son 4—5 il ərzində diplomatik görüşlərin, beynəlxalq elmi konfransların, mədəniyyət və incəsənət tədbirlərinin, idman çempionatlarının mərkəzinə çevrilmişdir. Təkcə 2012-ci il ərzində Qəbələdə 15-dək qeyd etdiyimiz sahələr üzrə müxtəlif tədbirlər keçirilmişdir. Belə tədbirlərin sayı 2013-cü ildə daha da arta bilər.



Bu günlərdə Qəbələ Fitnes Sağlamlıq Mərkəzində rayonumuz 2013-cü ilin ilk Azərbaycan çempionatına ev sahibliyi etmişdir. Bu çempionat ölkə üzrə keçirilən 5-ci çempionat idi.

Azərbaycan Boulinq İdman Federasiyasının baş katibi Şəhriyar İsmayılovla müsahibəmiz zamanı qeyd etdi ki, idmanın bu növü üzrə Azərbaycan çempionatı çox da uzun bir tarixi dövrü əhatə etmir. 5 çempionatdan bu gün artıq 3-ü (2010, 2011, 2012-ci illərdə) Qəbələdə keçirilir. Qəbələ bütün sahələr üzrə sürətli inkişaf etdiyi kimi idman sahəsində də sürətlə inkişaf edir. Regionlarda idmanın bu sahəsi üçün Qəbələdə hər cür texniki imkanlara cavab verən bir salon yaradılmışdır. Bu salonda respublika çempionatlarının keçirilməsi üçün hər cür şərait vardır. Ona görə də 2010-cu ildən sonra ardıcıl olaraq 3 çempionatı Qəbələdə keçirməyi qərara aldıq.



Cempionatın keçirilməsinə bir il ərzində ciddi hazırlıq aparılmışdır. Qeyd edilən müddət ərzində bir çox təlim məşqləri aparılmış, federasiya üzvləri arasında seçim turları keçirilmişdir. Nəhayət, «A» və «B» qrupları üzrə 18 nəfər federasiya üzvü çempionatda iştirak etmək hüququ qazanmışdır.

Çempionat səhər saat 10 tamamda başladı. Qəbələ Fitnes-Sağlamlıq Mərkəzində idmançılar və çempionatın qonaqları, tamaşaçılar üçün hər cür şərait yaradılmışdır. Hər iki qrup üzrə yarışlar saat 18.00-a qədər davam etdi. Hər qrup üzrə finala çıxan 6 nəfər idmançının gərgin mübarizəsi bir nesə saata başa çatdı. Nəhayət, «A» qrupu üzrə 2191 xalla Elxan Feyzullayev I yerə, 2142 xalla Ramil Həmidov II yerə, 2036 xalla Mounzer Barakat III yerə layiq görüldülər. Qeyd edək ki, Elxan Feyzullayev bu yarışda ardıcıl olaraq üçqat Qəbələ çempionu oldu.

Gənclərdən ibarət «B» qrupu üzrə Nigar Korçiyeva I yeri, Elvin Şirinbəyli II yeri, Əli Əliyev isə III yeri tutdu.



Qaliblərə Boulinq Federasiyasının medalları və diplomları təqdim olundu. Mükafatları qaliblərə alqışlar altında Federasiyanın baş katibi Ş. İsmayılov və «Qafqaz» hotelin müdiri Əlibəy Çaylak təqdim etdilər. Əlavə olaraq birinci yerə çıxan idmançılara «Qafqaz» hotelin rəhbərliyi tərəfindən 2 nəfərlə iki günlük «Qafqaz» hoteldə istirahət hüquqü verən göndəriş verildi.

Ş. İsmayılov cıxış edərək çempionatın uğurla başa çatması haqqında məlumat verdi və çempionatın Qəbələdə keçirilməsi üçün yüksək şərait yaradan rayon rəhbərliyinə və otelin müdiriyyətinə federasiya adından minnətdarlıq bildirdi.

Sonda idmançılar federasiyanın rəhbərliyi ilə xatirə şəkli çəkdirmişlər.

**Nadir ATAKİŞİYEV.**